**İQTİSADİ ELMLƏR**

**UOT 657**

# "EHTİYATLAR" ADLI 2 №-Lİ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTI (MUBS)

**Asif AĞAYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 7 iyun 2024; çapa qəbul edilmişdir: 25 iyun 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.
Received: 7th of June, 2024; accepted: 25th of June, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *Mühasibat uçotu, maliyyə, mənfəət, zərər, hesabat*

## Giriş

Məqalənin tədqiqat obyektinə çevrilən əsas keyslər, "Kiçik və Orta Sahibkarlıq" subyektlərində "Ehtiyatlar adlı 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standart"larının əsas məqsədi və mahiyyətini tədqiq etməkdir. Tədqiqat işi məntiqi, sistemli yanaşma və induksiya-deduksiya kimi tədqiqat metodları vasitəsilə yerinə yetirilmişdir. Tədqiqatda müəssisənin balansında böyük rola malik *"Ehtiyatlar"* mövzusunun müəssisələrin fəaliyyətində öz spesifik rolu araşdırılmışdır. Məqalədə müəssisələrin öz *"Ehtiyatlar"*nı uçota alarkən hansı üsul və yollardan istifadə edilməsindən danışılmışdır. Eyni zamanda, ehtiyatların cari və gələcək dövrlərdə müəssisə fəaliyyətində böyük rol oynamaqla onların il yekununda və ya cari vəziyyətdə mənfəətlilik üzərində göstərə biləcəyi müsbət təsir ilə bağlı elmi faktlar araşdırılmışdır. Tədqiqatda "Ehtiyatlar"ın real müəssisələrin uçotu fonunda təhlilinin(gəlir və xərclərinin uçotunu aparan müəssisələr üzərində) misallar üzərində izahı verilmişdir. Həmçinin, məqalədə "Ehtiyatlar 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartlar"ından danışılarkən, onların müəssisələr tərəfindən ilkin olaraq dəyərləndirilməsi, əməliyyat jurnalına necə qeyd olunması və hansı formada yazılmasına toxunulacaqdır. Tədqiqat işində *"Ehtiyatlar"*ın həcminin müəssisə daxilində hansı formada özünü büruzə verməyinə toxunulmuşdur ki, bu da öz növbəsində məqalə üçün maraqlı tərəflərə *"Ehtiyatlar"* mövzusunu çox yaxşı mənimsəməyə, onun müəssisə üçün hansı faydalarının olmasına və ümumiyyətlə, bu standartın nə üçün aktual olmasına toxunulacaqdır.

## 1. Ehtiyatların tanınması və ölçülməsi

Qeyd etdiyimiz yarımbaşlıq ehtiyatların tanınması və ölçülməsi prinsiplərini müəyyən edir. Ehtiyatlar o aktivlərdir ki:

- adi iş şəraitində (fəaliyyət siklində) satış üçün saxlanılır;
- belə satış istehsal prosesində olur;
- istehsal prosesində və ya xidmətlərin göstərilməsində istehlak ediləcək materiallar şəklindədir.

Bu bölmə aşağıdakılar istisna olmaqla bütün inventarlara aiddir:

- tikinti müqavilələri, o cümlədən birbaşa əlaqəli xidmət müqavilələri;

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* asifagayev9087@gmail.com
DOİ: https://doi.org/10.30546/25194011.2024.13.4.034

- maliyyə alətləri və məhsul yığımı zamanı kənd təsərrüfatı məhsulları ilə bağlı bioloji aktivlər.

Bu bölmə aşağıdakılar tərəfindən saxlanılan ehtiyatların ölçülməsinə (qiymətləndirilməsinə) şamil edilmir:

- Kənd təsərrüfatı və meşə məhsulları, məhsul yığımından sonra kənd təsərrüfatı məhsulları və satış xərcləri çıxılmaqla ədalətli dəyərlə ölçülən minerallar və mineral məhsulların istehsalçıları;
- və ya öz ehtiyatlarını satış xərcləri çıxılmaqla ədalətli dəyərlə qiymətləndirən əmtəə brokerləri və dilerlər.

1.1. *Ehtiyatların qiymətləndirilməsi (ölçülməsi):*

Müəssisə ehtiyatları ilkin dəyər ilə mümkün xalis satış dəyəri (MXSD) arasında qiymətləndirilməlidir. Tərif üzərindən baxsaq: Mümkün Xalis Satış Dəyəri ehtiyatların ehtimal olunan satış dəyərindən satış və tamamlama xərclərini çıxdıqdan sonra qalan dəyərdir. Məsələn, müəssisənin ehtiyatlarının ehtimal olunan satış dəyəri 25 000 AZN, satış xərcləri 4 000 AZN, tamamlama xərcləri isə 3 000 AZN olmuşdur. Mümkün Xalis Satış Dəyəri 18 000 AZN (25000 – 4000 – 3000) olacaqdır (1). Fikrimizcə, yuxarıda yazdıqlarımıza misal üzərindən baxsaq, mövzunu daha yaxşı mənimsəməyə kömək edərək, gedişata daha uyğun olardı. Belə ki, aşağı hissədə *"Ehtiyatlar"* üçün yazdıqlarımızı misal üzərində real müəssisələrdə baş verən əməliyyatlar fonunda hazırlamışıq.

*Şəkil 1.*

| "Alfa" şirkətinin ehtiyatlarla bağlı məlumatları aşağıdakı kimi olmuşdur | | | |
|---|---|---|---|
| | A məhsulu | B məhsulu | C məhsulu |
| İlkin dəyər | 60000 | 70000 | 5000 |
| Satış dəyəri | 75000 | 82000 | 53000 |
| Satış xərcləri | 6000 | 9000 | 2000 |
| Tamamlama xərcləri | 3000 | 4000 | 1000 |

| |
|---|
| Sual1. A məhsuulu üzrə hesabat dövrünün sonuna maliyyə vəziyyəti haqqında hesabatda nə qədər məbləğ göstəriləcəkdir? |
| Sual3. C məhsuulu üzrə hesabat dövrünün sonuna maliyyə vəziyyəti haqqında hesabatda nə qədər məbləğ göstəriləcəkdir? |
| Sual2. B məhsuulu üzrə hesabat dövrünün sonuna maliyyə vəziyyəti haqqında hesabatda nə qədər məbləğ göstəriləcəkdir? |
| |
| Cavab 1. Qeyd etdiyimiz kimi, müəssisə ehtiyatları qiymətləndirərkən ilkin dəyər ilə MXSD arasında ən kiçiyi götürməlidir. Yadda saxlamaq lazımdır ki, əgər ilkin dəyər daha kiçik məbləğdirsə, bu zaman hesabatlarda hər hansı bir dəyişiklik olmayacaqdır. Amma MXSD daha kiçik olarsa, müəssisə ehtiyatın dəyərinə düzəliş edərək onu azaltmalıdır. Bu azalma isə mənfəət və ya zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər hesabında öz əksini tapacaqdır. Xülasə, A məhsulunun vəziyyəti aşağıdakı kimidir: |
| İlkin dəyər=60000, MXSD=75000-6000-3000=66000. Hesabatda əks olunacaq dəyər=60000. Göründüyü kimi, burada hər hansı bir qiymətdəndüşmə nəzərə alınmamışdır. |
| |
| Cavab 2. B məhsulunun vəziyyəti aşağıdakı kimidir: |
| Ilkin dəyər=70000, MDXS=82000-9000-4000=69000. Hesabatda əks olunacaq dəyər=69000. Qiymətdəndüşmə üzrə zərər=69000-7000=(1000) |
| |
| Cavab 3. C məhsulunun vəziyyəti aşağıdakı kimidir: |
| İlkin dəyər=50000, MDXS=53000-2000-1000=50000. Hesabatda əks olunacaq dəyər=50000. Göründüyü kimi, burada hər hansı bir qiymətdəndüşmə nəzərə alınmamışdır. |

*Şəkil.1*-də göründüyü kimi, nəzəri olaraq dediklərimizi praktikdə misallar üzərində tətbiq edəndə daha anlaşıqlı və daha aydın bir formada qarşımızda olur. Eyni zamanda,

bu misallar vasitəsilə maraqlı tərəflərdə mühasibatlıqla bağlı mövzulara maraq və görüşlər formalaşdıra bilərik.

## 2. Dövriyyə aktivlərinin analizi (xammal və materiallar)

Malların istehsalında, işlərin görülməsində, xidmətlərin göstərilməsində və müəssisənin tələbatlarını ödəmək üçün istifadə edilən və istifadə müddəti 1 ildən az olan əşyalara deyilir. Xammal və materiallar dövriyyə aktivləri olaraq, istehsal prosesində tədarük edilir və öz dəyərini istehsal edilən məhsula tam olaraq keçirirlər.

İstehsaldakı rolundan asılı olaraq materiallar aşağıdakı qruplara bölünür:

- Xammal;
- Materiallar;
- Qablaşdırma materialları;
- Satın alınmış yarımfabrikatlar və komplektləşdirici məmulatlar, konstruksiyalar və detallar (hissələr);
- Yanacaq;
- Ehtiyat hissələri;
- Tikinti materialları;
- Sair materiallar.

Xammal və materiallar 201 "Material ehtiyatları" hesabında uçota alınır. Bu hesaba aşağıdakı subhesablar açıla bilər:

- 201-1 “Xammal”;
- 201-2 “Materiallar”;
- 201-3 “Qablaşdırma materialları”.

Bundan başqa, köhnə uçot qaydalarına görə müəsissədə *“Azqiymətli və tezköhnələn əşyalar (ATƏ)”* da uçota alınırdı. Azqiymətli və tezköhnələn əşyalar dedikdə təsərrüfat inventarları, ümumi və xüsusi təyinatlı alət və ləvazimatlar, digər əmək vasitələri, müəssisənin işçilərinə verilməsi nəzərdə tutulmuş hazır formalı geyim paltarı və s. nəzərdə tutulur. Köhnə uçot qaydalarına görə, faydalı istifadə müddəti 1 ildən az olan inventarlar azqiymətli və tezköhnələn əşyalar adlanırdı və onlar istismara verilən kimi dəyərinin 50%-i, istismar müddəti keçdikdən sonra isə qalan 50%-i silinirdi.

Qeyd edək ki, yeni uçot qaydalarında belə bir anlayış və hesab olmadığından, bu cür əşyaları "Material ehtiyatları"nın tərkibində uçota alınır. Onlar yayarsız hala düşdükdə isə, onları xərclərə silmək olar (2).

## 2. Material ehtiyatlarının daxil olması

Müəssisəyə materiallar, adətən, alqı-satqı əməliyyatları nəticəsində malgöndərənlərdən daxil olunur. Lakin başqa daxil olma yolları ola bilər:

- əvəzsiz;
- təsisçilər tərəfindən;
- öz daxili istehsalı;
- mübadilə nəticəsində;
- tikili və avadanlıqların ləğv edilməsi nəticəsində.

Materiallar əldə edilən zaman ilkin dəyəri ilə qiymətləndirilir. Materialların ilkin dəyərinə alış qiyməti, gömrük idxal rüsumları və digər vergilər (vergi orqanları tərəfindən müəssisəyə sonradan əvəz edilən vergilər istisna olmaqla), daşınma, boşaldılma və xammal-materialların əldə edilməsi ilə birbaşa bağlı olan digər məsrəflər daxildir (3).

Əldə edilmiş materialların bazar qiyməti hər hansı bir səbəbdən ilkin dəyərdən aşağı düşdükdə müəssisə əldə etdiyi material ehtiyatlarını mövcud olan iki dəyərdən – *ilkin dəyər və ya mümkün xalis satış dəyərindən ən aşağı olanı ilə qiymətləndirir.* Bu zaman ehtiyatların balans dəyərinin mümkün xalis satış dəyərinədək hər hansı azalma məbləği

və ehtiyatlar üzrə bütün itkilər bu azalmanın və ya itkinin baş verdiyi dövrdə xərc kimi tanınmaqla 731-7 №-li subhesabın debetində və 208 №-li hesabın müvafiq subhesablarının kreditində əks etdirilir. Materiallar alqı-satqı müqaviləsi ilə müəssisənin balansına hansı formada daxil olur dedikdə yəni hansı formada müxabirləşmələr, hansı formada mühasibat yazılışları verilir dedikdə: Material ehtiyatları əldə olunan zaman aşağıdakı mühasibat yazılışları verilir:

- material ehtiyatları, istehsalat (iş və xidmət) məsrəfləri, mallar və digər ehtiyatların dəyərinə 201 №-li hesabın müvafiq subhesablarının debeti və 244, 431, 432, 433, 435, 445, 531, 532, 536, 538, 545 №-li hesabların müvafiq subhesablarının krediti üzrə;
- aksiz vergisi tətbiq edilən məhsul istehsalında istifadə olunan aksiz vergili xammal və materiallar əldə edilən zaman həmin xammal və materiallar üzrə hesablanılan aksiz vergisinə 241-2 №-li subhesabın debeti və 244, 431, 432, 433, 435, 445, 531, 532, 536, 538, 545 №-li hesabların müvafiq subhesablarının krediti üzrə;
- əldə edilmiş xammal və materiallar üzrə ödənilmiş aksiz vergisi əvəzləşdirildikdə 521 №-li hesabın müvafiq subhesablarının debeti və 241-2 №-li subhesabın krediti üzrə;
- əldə edilmiş xammal və materiallar üzrə ödənilmiş aksiz vergisi əvəzləşdirilməyən hallarda 201 №-li hesabın müvafiq subhesablarının debeti və 241-2 №-li subhesabın krediti üzrə;
- əldə edilmiş material ehtiyatlarla əlaqədar əlavə dəyər vergisinin hesablanması üzrə 241-1 №-li subhesabın debeti və 244, 431, 432, 433, 435, 445, 531, 532, 536, 538, 545 №-li hesabların müvafiq subhesablarının krediti üzrə;
- əldə edilmiş material ehtiyatları üzrə əlavə dəyər vergisi əvəzləşdirildikdə 521 №-li hesabın müvafiq subhesablarının debeti və 241-1 №-li subhesabın krediti üzrə;
- əldə edilmiş material ehtiyatları üzrə əlavə dəyər vergisi əvəzləşdirilməyən hallarda 201 №-li hesabın müvafiq subhesablarının debeti və 241-1 №-li subhesabın krediti üzrə.

Material ehtiyatları, mallar və digər ehtiyatların alınması ilə əlaqəli olan öhdəliklərə görə yaranmış faiz xərcləri 751-1 №-li subhesabın debetində və 434, 537 №-li hesabların müvafiq subhesablarının kreditində əks etdirilir.

### 3. Materiallar ehtiyatların xaric olunması

Xammal və materiallar istehsal prosesinə, müəssisənin daxili ehtiyaclarını ödəmək üçün buraxıla bilər, satıla bilər, əvəzsiz verilə bilər və ya hər hansı bir səbəbdən məhv edilə bilər (köhnəlmə, itki, oğurluq və s).

Xammal və materialların buraxılışı müəssisədə materialların çıxışına *tələbnamə və daxili qaimə əsasında* icra oluna bilər. Xammal və materiallar satılırsa onların çıxışı *elektron qaimə-faktura ilə* sənədləşdirilir.

Xammal və materialların istehsala və ya sair bir səbəbdən çıxışının qiymətləndirilməsi “Ehtiyatlar üzrə” 8 №-li Milli Mühasibat Uçotu Standartının 25-ci bəndinə görə ehtiyatların ilkin dəyəri “ilk mədaxil – ilk məxaric” (FİFO) və ya çəkili orta dəyər düsturu əsasında hesablana bilər. Müəssisə, ehtiyatların ilkin dəyərinin hesablanmasında tətbiq etdiyi eyni düsturu xüsusiyyəti və istifadə edilməsi baxımından eyni olan bütün ehtiyatlara tətbiq etməlidir. Müxtəlif xüsusiyyətlərə malik olan və müəssisə tərəfindən müxtəlif cür istifadə edilən ehtiyatların ilkin dəyərini hesablamaq məqsədilə müxtəlif üsullardan istifadə edilə bilər.

Bir-birini əvəz edə bilməyən ayrı-ayrı maddələr üzrə ehtiyatlar, habelə xüsusi

layihələr üçün istehsal edilmiş və nəzərdə tutulmuş mallar istisna olmaqla ehtiyatların ilkin dəyəri "ilk mədaxil – ilk məxaric" (FİFO) və ya orta çəkili dəyər düsturu əsasında hesablanır. Müəssisə ehtiyatların ilkin dəyərinin hesablanmasında tətbiq etdiyi eyni düsturu xüsusiyyəti və istifadə edilməsi baxımından eyni olan bütün ehtiyatlara tətbiq etməlidir.

Mühasibat uçotu subyekti müxtəlif xüsusiyyətlərə malik olan və müəssisə tərəfindən müxtəlif şəkildə istifadə edilən ehtiyatların ilkin dəyərini hesablamaq məqsədi ilə müxtəlif üsullardan istifadə etmək hüququna malikdir.

Xammal və materiallar müəssisə daxilində istifadə edilməsinə gəldikdə isə Xammal və materiallar müəssisə daxilində istifadə edildikdə onların dəyəri 201 "Material ehtiyatları" hesabının kreditindən 202 "İstehsalat (iş və xidmət) məsrəfləri", 711 "Kommersiya xərcləri", 721 "İnzibati xərclər", 731 "Sair əməliyyat xərcləri" hesablarının debetinə silinir.

Mühasibat uçotu subyektinin ehtiyatlarının əskik gəlməsi zamanı müvafiq təqsirkar şəxslərin müəyyən edilməsi mümkün olmayan hallarda, bu əskikgəlmələr müəssisənin xərcinə aid edilməklə ehtiyatların dəyərinin azalmasına görə düzəlişlər üzrə məbləğlər mövcud olduqda, 208 №-li hesabın müvafiq subhesablarının debeti və 201, 206 №-li hesabların müvafiq subhesablarının krediti üzrə, onların ilkin dəyərinə və ya mümkün xalis satış dəyərinə 731 №-li hesabın müvafiq subhesablarının debeti və 201, 206 №-li hesabların müvafiq subhesablarının krediti üzrə mühasibat yazılışı verilir.

Xammal və materiallar tikili və avadanlıqların təsərrüfat üsulu ilə yaradılması və ya təmiri zamanı isə onların dəyəri 201-ci hesabın kreditindən 113-cü hesabın debetinə silinir. Əməliyyat jurnalında müxabirləşməsinə baxsaq:

*Şəkil. 2*

| N | Əməliyyatın məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|---|
| 1 | Məhsul istehsalında istifadə edilən xammal və materialların dəyəri silinir | 202 "İstehsalat (iş və xidmət) məsrəfləri" | 201 "Material ehtiyatları" | - |
| 2 | Hazır məhsulun və malların satışı zamanı istifadə edilən qablaşdırma materialları | 711 "Kommersiya xərcləri" | 201-3 "Qablaşdırma materialları" | - |
| 3 | Anbar binasının təsərrüfat üsulu ilə tikilməsi zamanı istifadə edilən materiallar. | 113 "Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması" | 201 "Material ehtiyatları" | - |

**Nəticə**

"Ehtiyatlar" adlı 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartları mövzusunu təhlil edərkən belə qənaətə gəlmək olar ki, "Ehtiyatlar" müəssisənin balansında olan elə bir aktivlərdir ki, onun vasitəsilə müəssisə və təşkilatlar öz kommersiya və ya istənilən bir qeyri-kommersiya fəaliyyətlərini sabit və davamlı şəkildə həyata keçirirlər.

Yuxarıda yazılanlara və ümumi mənada mühasibatlığa baxsaq, görərik ki, müəssisə və təşkilatlar öz fəaliyyətlərini üç formada həyata keçirirlər, belə ki, onlar, ya xidmət (yəni hər hansı bir istənilən xidmətin göstərilməsi), ya mal (hazır məhsul), ya da ki, hər ikisinin satışını həyata keçirirlər.

Belə ki, mal (hazır məhsul) satışı ilə məşğul olan bir müəssisə həmin malları alarkən (mallar) və ya özü istehsal edərkən (hazır məhsul) istənilən bir formada *"Ehtiyatlar"*ın hər hansı bir elementindən istifadə edir, onu müəssisənin balansında *"Ehtiyatlar"* bölməsində qeyd edir və ya hər hansı bir mühasibat yazılışı verir.

Eyni zamanda, müəssisə hər hansı bir xidmət sektoru ilə məşğuldursa, o həmin işi - xidməti və satışını həyata keçirmək üçün hər hansı bir xammal və ya materiallardan

istifadə edəcək, məsələni daha da yığcamlaşdırsaq və daha da məzmunlaşdırsaq rahatlıqla deyə bilərik ki, istər mal (hazır məhsul), istərsə də xidmət satışını həyata keçirən bir müəssisə və təşkilatların balansında *“Ehtiyatlar”*ın olması labüddür.

## ƏDƏBİYYAT


1. Fətullayev R. Beynəlxalq Mühasibat Uçotunun Əsasları (Maliyyə Uçotu). Bakı: Nurlar nəşriyyatı-Poliqrafiya mərkəzi, 2022, 432 s.
2. Fətullayev R. Məsələlər və Testlər toplusu (Maliyyə uçotu). Bakı: Nurlar nəşriyyatı-Poliqrafiya mərkəzi, 2023, 352 s.
3. https://www.muhasib.az/article.php?cat=2&n=802
4. https://az.wikipedia.org/wiki/M%C3%BChasibat_m%C9%99nf%C9%99%C9%99ti
5. https://audit.az/ehtiyatlar-haqqinda-umumi-anlayis/



***Резюме***

***Асиф Агаев***

***Международный стандарт финансовой отчетности (МСФО) № 2 «Резервы»***

Мы знаем, что счет резервов, как и другие невременные счета, отображается в отчете о финансовом положении (SFP). То есть в МВХХ, который чаще называют Балансом, мы можем видеть еще и счет «Резервы», а это значит, что данный актив является необходимым элементом учета для принятия каких-либо текущих или будущих финансовых решений.

За счет сырья и материалов, являющихся полуэлементами резервов, предприятия и организации приводят цикл своей деятельности в более выгодную форму.

Если мы посмотрим на мировые стандарты, мы легко сможем заметить, что компании по всему миру увеличивают объем своих резервов, чтобы усилить свою текущую и будущую экономическую эффективность. Ведь, как мы уже упоминали выше, предприятиям и организациям, реализующим Товары (Готовую продукцию), а также реализующим и оказывающим услуги, важно увеличивать свои резервы. Если предприятие хочет иметь непрерывное воспроизводство, ему, конечно, наряду с «Основными фондами» необходимы Сырье и Материалы. Буда, в свою очередь, раскрывает необходимость увеличения объёма «Резервов» на предприятиях и организациях.

Сумма резервов может быть показана в абсолютном, стоимостном и относительном размерах. Абсолютный размер резервного объема, естественно, определяется тоннами, центнерами, метрами, единицами, другими словами, физическими единицами, в которых можно измерить материал. Важность придания объема запасов в абсолютных размерах состоит в том, что они используются при эффективной организации складского хозяйства (путем расчета складских площадей), особенно при планировании материально-технического снабжения.


**Ключевые слова**: *предприятие, инвентаризация, бухгалтерский учет, финансы, стоимость*


***Summary***

***Asif Aghayev***

***International Accounting Standard (IAS) No. 2 "Reserves"***

We know that like other non-temporary accounts, the account named "Reserves" also appears in the Statement of Financial Position (SFO). That is, in MVHH, which is more commonly called the Balance sheet, we can also see the "Reserves" account, which means that this asset is a necessary accounting element for making any current or future financial decisions.

Through Raw Materials and Materials, which are semi-elements of reserves, enterprises and organizations bring their activity cycle to a more profitable form.

If we look at world standards, we can easily observe that companies around the world increase the volume of their reserves in order to strengthen their current and future economic efficiency. Indeed, as we mentioned above, it is important for enterprises and organizations that sell Goods (Finished products) and sell and provide services to increase their reserves. If the enterprise wants to have continuous reproduction, of course it needs Raw Materials and Materials along with "Fixed Assets". Buda, in turn, reveals the necessity

of increasing the volume of "Reserves" in enterprises and organizations.

The amount of reserves can be shown in absolute, value, and relative sizes. The absolute size of the reserve volume is naturally determined by tons, centners, meters, pieces, in other words physical units by which the material can be measured. The importance of giving the volume of stock in absolute dimensions is that it is used in the efficient organization of warehouse management (by calculating storage areas), especially in the planning of material and technical supply.

The absolute size of the material reserve, first of all, directly depends on the daily consumption rate of this or that type of material. The daily consumption rate of the material also depends on the volume of production. From the type of enterprise, etc. It depends on many factors and less. Or they can be many.

**Key words:** *enterprise, inventory, accounting, finance, value*

Şöbə redaktoru i.ü.f.d., dos. Ələsgərova Flora Qəməndər qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.